TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
________________ E.M.Ağayev
"24" yanvar 2017-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

Bu dərman vasitəsini istifadə etməzdən əvvəl, içlik vərəqəni diqqətlə oxuyun!
İçlik vərəqəni özünüzdə saxlayın, ola bilsin ki, onu oxumaq sizə bir daha lazım olacaq.
Daha ətraflı məlumatı siz həkiminizdən və ya əczaçıdan ala bilərsiz. Əgər lazım bilsəz onlara məsləhət üçün müraciət edə bilərsiniz.

**BİOLEKTRA MAQNEZİUM FORTE** fışıldayan tabletlər
BIOLECTRA® MAGNESIUM FORTE

**Tərkibi**
*Təsiredici maddə:* 1 fışıldayan tabletin tərkibində 403,0 - 435,2 mq maqnezium oksid ( 243 mq maqneziuma ekvivalentdir) vardır.
*Köməkçi maddələr*: susuz limon turşusu, natrium hidrokarbonat, susuz natrium karbonat, kalium hidrokarbonat, alma turşusu, mannit, düyü nişastası, limon aromatizatoru «MH» E 143, natrium siklamat, natrium xlorid, natrium saxarin, simetikon.
1 fışıldayan tablet 0,01 ÇV-yə (çörək vahidinə) bərabərdir.

**Təsviri**
Zədəsiz, hamar səthli, yumru, ağ, yasti-silindirik formalı bir tərəfində «Biolectra» yazısı həkk olunan tabletlərdir.

**Farmakoterapevtik qrupu**
Digər mineral əlavələr. Maqnezium preparatları.
**ATC kodu:** A12C C10.

**İstifadəsinə göstərişlər**
Əzələ fəaliyyətinin pozulmasına (sinir-əzələ pozğunluqları, qıcolmalar) səbəb olan maqnezium çatışmazlığının müalicəsi və profilaktikası, xroniki fiziki və zehni yorğunluq, əsəbilik zamanı, mialgiyalarda, intensiv fiziki və əqli yüklənmələr zamanı, hamiləlik dövründə orqanizmin maqneziuma olan tələbatını ödəmək üçün.
Uzunmüddətli siqaret çəkmə və alkoqolun istifadəsi nəticəsində yaranan hipomaqneziemiya, uzun müddət işlədici və kontraseptiv dərmanlardan istifadə, daimi hiperqlikemiyalı şəkərli diabeti olan xəstələrdə bəzi diuretiklərdən istifadə zamanı və ya osmotik diurez zamanı.

**Əks göstərişlər**
Təsiredici maddəyə və ya preparatın digər komponentlərinə qarşı yüksək həssaslıq.
Böyrəklərin funksional pozğunluğu zamanı və ürəkdə oyanmanın ötürülməsinin bradikardiyaya gətirib çıxara bilən pozğunluqları (yüksək dərəcədə AV-blokada) zamanı Biolektra maqnezium 240 forte preparatını istifadə etmək tövsiyə olunmur. Həmçinin mineral və elektrolit mübadiləsinə qarşı

əks göstəriş olub-olmadığını yoxlamaq lazımdır (hipermaqneziemiya, hiperkaliemiya).
Ağır miasteniya, ekssikoz və kalsium-maqnezium-fosfatoammonium diatez zamanı Biolektra maqnezium 240 forte əks göstərişdir.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
1 fışıldayan tabletin tərkibində 7,35 mmol (169 mq) natrium vardır. Bunu, natriumun aşağı miqdarı ilə (natriumun /xörək duzunun aşağı miqdarı ilə) pəhriz saxlayan şəxslər nəzərə almalıdır.
1 fışıldayan tabletin tərkibində 3,48 mmol (136 mq) kalium vardır. Bu, böyrək funksiyaları məhdudlaşmış, həmçinin aşağı tərkibli kalium pəhrizi saxlayan pasiyentlər tərəfindən nəzərə alınmalıdır.
Bu dərman vasitəsinin tərkibində sorbitol vardır. Bəzi şəkərlərə qarşı irsi dözümsüzlüyü olan pasiyentlərə bu dərman vasitəsini qəbul etməzdən əvvəl həkimlə məsləhətləşmək lazımdır.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Eyni zamanda dəmir flüoridin, natrium flüoridin istifadəsi və ya tetrasiklinin tətbiqi dəmirin, natrium flüoridin, tetrasiklinin və maqneziumun mənimsənilməsinin pozulmasına səbəb ola bilər.
Belə hallarda Biolektra maqnezium forte preparatı ilə dəmir preparatları, natrium ftoridin, tetrasiklinin qəbulları arasında interval 3-4 saat olmalıdır.
Tərkibində alüminium olan preparatlarla birlikdə istifadəsi zamanı (məsələn, antasid vasitələr) alüminiumun sorulması yüksək ola bilər.
***Uyuşmazlıq***
Məlum deyil.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə preparatın istifadəsi ilə bağlı heç bir risk yoxdur.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Təsir etmir.

**İstifadə qaydası və dozası**
Biolektra maqnezium forte-nin dozası maqnezium çatışmazlığının səviyyəsindən asılıdır. Orta gündəlik doza 1-2 fışıldayan (243-486 mq maqnezium ionları = 10-20 mmol) tablet təşkil edir.
Biolektra maqnezium forte preparatı üçün aşağıdakı dozalar tövsiyə olunur:
6 yaşdan yuxarı uşaqlar: tablet gündə 1 dəfə 1 fışıldayan,
Yeniyetmə və böyüklərə: gündə 1-2 dəfə 1 fışıldayan tablet.
Ağır maqnezium çatışmazlığında həkim nəzarəti altında Biolektra maqnezium forte-nin daha yüksək dozaları istifadə edilə bilər.
1 fışıldayan tablet 1 stəkan suda həll edilir, hazır məhlul mütləq içilir.
Müalicə müddəti maqnezium çatışmazlığının əsasında duran səbəblərdən asılıdır.
Maqneziumun uzun müddət yüksək dozalarda istifadəsi həkimin nəzarəti altında həyata keçirilməlidir.

**Əlavə təsirləri**
Bir qədər yüksək dozalarda yumşaq nəcis ola bilər, bu təhlükəli deyil və doza aşağı salındıqda keçib gedir. Biolektra maqnezium forte-ni uzunmüddətli yüksək dozalarda isitifadə etdikdə yorğunluq hissi yarana bilər. Bu halda həkim klinik və kimyəvi analiz metodlarının köməyi ilə maqneziumun qəbulunun davam etdirilməsinin məqsədəuyğunluğu barədə qərar qəbul etməlidir.

**Doza həddinin aşılması**
Ancaq böyrək çatışmazlığı zamanı maqnezium duzlarının daxilə qəbulu zamanı hipermaqneziemiya yaranır. Belə pasiyentlərə maqnezium duzlarının qəbulu əks göstərişdir.
*İntoksikasiya simptomları*

Maqneziumun yüksək konsentrasiyası skelet əzələlərinin zəifləməsini yaradır (qan plazmasında maqneziumun konsentrasiyası 5,5 mmol/l-dən yüksəkdir). Maqnezium ionlarının daha yüksək konsentrasiyası (10-20 mmol/l) ürək ötürücülüyünü uzadır və daha yüksək konsentrasiyalar diastolada ürək dayanmasına gətirib çıxarır.
*İntoksikasiyanın müalicəsi*
Kalsiumun venadaxili yeridilməsi təsvir edilən simptomların dərhal aradan qalxmasına gətirib çıxarır, çünki, bu ionlar arasında antaqonizm vardır.

**Buraxılış forması**
10 fışıldayan tablet, tubda. 1 tub içlik vərqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25 °C-dən yüksək olmayan temperaturda, orijinal qutusunda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz..

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Hermes Arzneimittel GmbH, Almaniya
Hermes Arzneimittel GmbH, Germany.

**Ünvan**
Hans-Urmiller-Rinq 52, 82515 Volfratsxauzen, Almaniya
Hans-Urmiller-Ring 52, 82515 Wolfratshausen, Germany.

**Ərizəçi**
Alpen Farma AG, Kazinoplats 2, 3011 Bern, İsveçrə
Alpen Pharma AG, Cazinoplatz 2, 3011 Bern, Switzerland.